PEŞƏ TƏHSİLİ üzrə Dövlət Agentliyi

Peşə təhsili müəssisələrinə ixtisas fənn müəllimi və
istehsalat təlimi ustası vəzifələrinə işə qəbul üzrə müsabiqə ilə bağlı

# İMTAHAN TƏLİMATI

**Hörmətli namizədlər,**

Test imtahanının müddəti 150 dəqiqədir. Cavablandırdığınız sual **yaşıl**, cavablandırmadığınız **qırmızı**, hazırda olduğunuz sual isə **sarı** rəngdə işarələnir. İmtahana istədiyiniz sualdan başlaya bilərsiniz.

İmtahanda əvvəlcədən cavablandırdığınız sualın cavabını dəyişmək istəyirsinizsə, istədiyiniz digər variantı seçə bilərsiniz. Əgər cavablandırdığınız sual variantından əmin deyilsinizsə və sualı cavablandırmaq istəmirsinizsə, **“Sıfırla”** düyməsini kliklməlisiniz.

***İxtisas fənn müəllimi vəzifəsi üçün***

Test imtahanında namizədlərə tədris edəcəyi ixtisas modulları üzrə təhsil proqramlarına aid 40 sual, tədris metodikasına və təlim strategiyalarına aid 20 sual təqdim edilir.

Test imtahanında ixtisas modulları üzrə təhsil proqramı üzrə hər düzgün cavab 2 balla, tədris metodikası və təlim strategiyaları üzrə hər düzgün cavab 1 balla qiymətləndirilir. İxtisas modulları üzrə hər səhv cavaba görə 0,5 bal, tədris metodikası və təlim strategiyaları üzrə hər səhv cavaba görə 0,25 bal çıxılır.

İxtisas modulları üzrə təhsil proqramı üzrə minimum 34 bal və tədris metodikası və təlim strategiyaları üzrə minimum 6 bal olmaqla, ümumi 40 bal və daha yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılır.

***İstehsalat təlimi ustası vəzifəsi üçün***

Test imtahanında namizədlərə tədris edəcəyi təlim modullarına aid 40 sual, təlim metodikasına və təlim strategiyalarına aid 15 sual, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydalarına aid 5 sual təqdim edilir.

Test imtahanında təlim modulları üzrə hər düzgün cavab 2 balla, təlim metodikası və təlim strategiyaları, eləcə də əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və

yanğından mühafizə norma və qaydaları üzrə hər düzgün cavab 1 balla qiymətləndirilir. Təlim modulları üzrə hər səhv cavaba görə 0,5 bal, təlim metodikası və təlim strategiyaları, eləcə də əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydaları üzrə hər səhv cavaba görə 0,25 bal çıxılır.
Təlim modulları üzrə minimum 32 bal və təlim metodikası və təlim strategiyaları üzrə minimum 6 bal, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydaları üzrə minimum 2 bal olmaqla, ümumi 40 bal və daha yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılırlar.

İmtahan bitdikdən sonra nəzarətçilərin təlimatı olmadan imtahan zalını tərk etmək və istifadə edilən qaralama kağızlarını zaldan çıxarmaq qadağandır! İmtahan binasını tərk edərkən şəxsi əşyalarınızı özünüzlə götürməyi unutmamağınız xahiş olunur.

***Test imtahanında hər birinizə uğurlar arzulayırıq!***